# "Açıq kitabxana"

**Azərbaycan Milli Kitabxanasının nəzdində fəaliyyət göstərən "Açıq kitabxana"ya dahi şairimiz Nizami Gəncəvinin məşhur misralarını xatırlaya-xatırlaya daxil oldum:**

**Dünyada nə qədər**
**kitab var belə,**
**Çalışıb, əlləşib gətirdim ələ.**
**Oxudum, oxudum,**
**sonra da vardım,**
**Hər gizli xəznədən**
**bir dürr çıxardım...**

Kitabxananın işıqlı guşələrinə nəzər saldıqca deyilənlərin həqiqətinə bir daha vardım. Qəribə, xoş bir aura idi. Kitab aləminin işığı elə bil sifətlərə çökmüşdü. Kitablar oxucuların simasında yeni bir doğmalıq hücrəsi, oxucularsa burada çalışan insanları özlərinə yeni dost, sirdaş tapmışdı elə bil...

"Açıq kitabxana" 2016-cı ilin iyul ayında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi əsasında yaradılıb. Fasiləsiz və sərbəst mütaliə imkanları məqsədinə xidmət edən kitabxana 24 saat fəaliyyət göstərir.

Bizimlə söhbətində "Açıq kitabxana – sərbəst mütaliə" bölməsinin müdiri Lalə Salahova qeyd etdi ki, kitabxana bütün yaş kateqoriyalarından olan oxucular üçün açıqdır və heç bir məhdudiyyət yoxdur.

– Burada "Uşaq guşəsi", "Mən oxudum, sən də oxu", "Dövri mətbuat" və "Milli musiqi" guşələri fəaliyyət göstərir. "Uşaq guşəsi"nə məktəbəqədər və məktəbyaşlı uşaqlar öz valideynləri ilə birgə gəlir, kitablar və jurnallar, milli nəşriyyatların çap etdiyi, eləcə də oxucular və müəlliflər tərəfindən Milli Kitabxanaya hədiyyə olunan əsərlərlə tanış olurlar. Yerli və xarici müəlliflərin sehrli nağılları, müxtəlif süjetli hekayələr, "Hökmdarlar və sərkərdələr", "Prezidentlər və dövlət xadimləri", "Tarixi şəxsiyyətlər" və s. seriyalarla çap olunmuş silsilə kitablar kiçik yaşlı oxucularımızın marağına səbəb olur.

Kitabxanada "Mən oxudum, sən də oxu" devizi altında "Kitabı kitaba dəyişmə" guşəsi də fəaliyyət göstərir. Burada həm ictimai-siyasi məzmunlu ədəbiyyat, həm milli ədəbi nümunələr, həm də dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri toplanıb. "Kitabı kitaba dəyişmə" guşəsi vasitəsilə hər bir vətəndaş özünə məxsus olan kitabı təhvil verməklə oxumadığı yeni bir kitab əldə edə bilir. Mübadilə nəşrləri kitabxananın sosial şəbəkə hesabında annotasiya ilə oxuculara təqdim olunur.

"Dövri mətbuat guşəsi"ndə oxucular üçün maraqlı jurnallar və qəzetlər toplanmışdır. Burada "Azərbaycan", "Azərbaycan xalçası", "Yada düşdü", "İrs", "Yazı" ədəbiyyat dərgisi, "Ulduz", "Mədəniyyət", "Baku", "Port Baku", "Forbes.Life" jurnallarının və bir sıra qəzetlərin yeni nömrələri müntəzəm olaraq təqdim edilir. "Milli musiqi guşəsi"ndə isə Azərbaycan bəstəkarlarının əsərləri, musiqi ədəbiyyatı və jurnallar toplanıb.



Lalə Salahova həmçinin qeyd etdi ki, kitabxanada mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər keçirilir, onların yeni kitablarının təqdimat mərasimləri, "İmza günləri" təşkil olunur. Məlum oldu ki, bir neçə gün öncə "Açıq kitabxana"da Milli Kitabxananın və "Azərbaycan gənclərinin inkişaf hərəkatı" ictimai birliyinin nəzdində fəaliyyət göstərən Kitab klubunun təşkilatçılığı ilə "Kitabın sirri" layihəsi çərçivəsində istedadlı gənc yazıçı Elvin İlqaroğlunun "Sən qəribə adamsan" kitabının təqdimatı keçirilib. Bundan başqa, yazıçı-dramaturq, "Qobustan" dərgisinin baş redaktoru Pərvin Nurəliyeva ilə görüşü və Eldar Hüseynovun "Ruhumun çağırışları" kitabının təqdimatını da qeyd edə bilərik.

**Çağdaş dövrdə cəmiyyətdə belə bir fikir formalaşıb ki, gənclərin mütaliəyə marağı azalıb. Amma Lalə Salahova bu fikirlə razılaşmır:**

– Gənclərin mütaliə marağı çox yüksəkdir, – deyə o bildirdi. – Yay fəsli olduğu üçün vətəndaşların rayonlara üz tutması səbəbindən bu gün oxucu sayında azalma müşahidə oluna bilər. Bununla belə, "Açıq kitabxana" geniş oxucu kütləsinə sahibdir. Hava şəraitindən asılı olmayaraq çoxsaylı oxucularla rastlaşa bilərsiniz.

**Həqiqətən də elə idi. Oxucuların iki-bir, üç-bir, ya da tək-tək buraya gəldiyinin şahidi olduq.**

**Aynur HİLALİ**

Xalq qəzeti .- 2024.- 27 iyul (№ 157).- S.9.